## Daxili investisiyaların həcmi artır

Yanvar-iyul aylarında əsas kapitala yönəldilmiş vəsaitin 78,8%-ni daxili investisiyalar təşkil edib

Respublikamız inkişafının elə mərhələsindədir ki, qazanılmış makroiqtisadi nailiyyətlər cəmiyyət həyatının mğxtəlif sahələrində intibaha xidmət edən, hər bir vətəndaşın həyatında kardinal dəyişikliklərlə mğşayiət olunan, bir süzlə, insan inkişafına xidmət edən infrastruktur layihələrini gerzəkləşdirmək imkanı yaradır. Ülkə iqtisadiyyatının inkişaf perspektivləri nəzərə alınaraq, mğəy-yən məqamlarda büyğk maliyyə hesabına başa gələn infrastruktur layihələrinə də vəsait ayrılır.

2012-ci ilin dövlət xərclərinin əsas istiqamətləri sırasında öncül yeri dövlət əsaslı vəsait qoyuluşları tutur - bu təsnifat üzrə büdcədən 5 milyard 777,1 milyon manat vəsait ayrılıb. Dövlət əsaslı vəsait qoyuluşu xərclərinin ilbəil artırılması sosial tələbat kimi ortaya çıxıb: müasir tələblərə cavab verən infrastruktur yaratmadan sahibkarlığın, turizmin, qeyri-neft sektorunun inkişafından, mədəni-intellektual inkişafdan danışmaq qeyri-mümkündür.

Həyata keçirilən tədbirlər nəticəsində daxili investisiyaların həcmində də artım müşahidə olunur. 2012-ci ilin yanvar-iyul aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafına bütün maliyyə mənbələrindən əsas kapitala 7 milyard 126 milyon manat vəsait qoyulub. Həmin vəsaitin 59,6%-dən tikinti-quraşdırma işlərinin yerinə yetirilməsində istifadə olunub. 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə əsas kapitala yönəldilmiş vəsaitin həcmi 26,9% artıb. Dövlət mülkiyyətli müəssisə və təşkilatlar əsas kapitala daha çox vəsait sərf ediblər. Qoyulan kapitaldan, əsasən, istehsal təyinatlı obyektlərin inşasında istifadə olunub.

Dövlət Statistika Komitəsindən əldə etdiyimiz məlumata görə, əsas kapitala yönəldilmiş vəsaitin 78,8%-ni daxili, 21,2%-ni xarici investisiyalar təşkil edir. Daxili investisiyaların 73,7%-i dövlət mülkiyyətində olan müəssisə və təşkilatların, qalanı isə qeyri-dövlət müəssisələrinin payına düşüb. Statistik rəqəmlərdən göründüyü kimi, əsas kapitala yönəldilən investisiyada daxili sərmayənin payı daha çoxdur. Bu, dövlətin ölkədə iqtisadi inkişafın dinamikasını qoruyub saxlamaq üçün kapital qoyuluşlarından yaxından iştirak etdiyini göstərir.

Ötən 7 ayda dövlət büdcəsindən inşaat işləri üçün nəzərdə tutulmuş vəsaitin 3 milyard 46,7 milyon manatından istifadə edilib. Bu müddətdə əsas kapitala yönəldilmiş sərmayənin ümumi həcmində müəssisə və təşkilatların vəsaitləri ümumi vəsaitin 43,8%-ni, bank kreditləri 4,5%, büdcə vəsaitləri 44,5%, büdcədənkənar fondların vəsaitləri 4,3%, əhalinin şəxsi vəsaitləri 2,5%, digər vəsaitlər 0,4% təşkil edib. Əsas kapitala yönəldilmiş vəsaitin çox hissəsi sənaye sahələrinin inkişafına, nəqliyyat və anbar təsərrüfatına, daşınmaz əmlakla əlaqədar əməliyyatlara, kənd təsərrüfatına, informasiya və rabitəyə, tikintiyə, səhiyyəyə və s. sahələrə yönəldilib.

Qeyri-neft sektoruna, xüsusən sənaye sahələrinin inkişafına yönəldilən kapital qoyuluşlarının da həcmində artım müşahidə edilib. Yanvar-iyul aylarında əsas kapitala yönəldilmiş ümumi vəsaitin 27,6%-i neft bölməsinin, 72,4%-i qeyri-neft bölməsinin, o cümlədən 10,7%-i qeyri-neft sənaye bölməsinin inkişafına sərf olunub.

Azərbaycandakı münbit investisiya şəraiti xarici investorların da diqqətini özünə cəlb edir. Bu səbəbdən də xarici investorların ölkəmizə yatırdığı sərmayə ildən-ilə artır. Cari ilin yanvar-iyul aylarında xarici mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin həcmi 1 milyard 513,8 milyon manat təşkil edib və bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,4% çoxdur. Əsas kapitala yönəldilmiş xarici vəsaitin 92,4%-i Böyük Britaniya, ABŞ, Yaponiya, Norveç, Türkiyə, Çexiya Respublikası və Fransa investorlarına məxsus olub.

Banklar tərəfindən ölkə iqtisadiyyatına qoyulan investisiyaların da həcmində artım müşahidə edilib. Mərkəzi Bankdan bildirilir ki, cari ilin iyul ayının 1-i vəziyyətinə ölkənin bank-kredit təşkilatları tərəfindən iqtisadiyyatın inkişafına 10,8 milyard manat həcmində kredit vəsaitləri yönəldilib. Kredit qoyuluşlarının 34,1%-i dövlət, 63,3%-i özəl banklar, 2,6%-i isə bank olmayan kredit təşkilatları tərəfindən həyata keçirilib.

Bütün bunlar göstərir ki, ölkədə infrastruktur layihələrinin həyata keçirilməsi, ictimai həyatın bütün sahələrinin yeniləşdirilməsi Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin mühüm tərkib hissəsinə çevrilib. Həyata keçirilən bu tədbirlər isə insanların daha firavan və rahat yaşamasına, ümumilikdə ölkə iqtisadiyyatının dinamik inkişafına xidmət edir.

S.MUSTAFAYEV